# Uşaqlarınızın peyvənd olunmasından imtina etməyin

Müasir dövrdə yoluxucu xəstəliklərə qarşı mübarizə metodlarından ən efektlisi və iqtisadi cəhətdən ən əlverişli üsul vaksinasiyadır.

Vaksin və ya peyvənd öldürülmüş və ya zəifləditmiş mikroblar onların ifraz etdiyi antigen xassəli maddələrdir. Əsas prinsipini müəyyən infeksion törədiciyə qarşı spesifik immun cavabın yaranması təşkil edir. Bu proses isə aktiv immunizasiya adlanır.

Hazırda Azərbaycanda təqvim üzrə Hepatit B, vərəm, difteriya, göyöskürək, tetanus, polimielit, B tipli hemofil infeksiyası, qızılca, parotit, məxmərək xəstəliklərinə qarşı peyvənd aparılır.

Odur ki, həmin xəstəliklər idarə oluna bilən infeksiyalar adlanır. Yəni həmin xəstəliklərə qarşı peyvəndlər aparıldıqda bu infeksiyaların qarşısı demək olar ki, alınmış olur.

Milli peyvənd təqviminə əsasən uşaqlara peyvəndlər 0-6 yaşına qədər müəyyən edilmiş vaxtlarda vurulur. Erkən aparılan peyvənd uşaqları difteriya iflic, tetanus, meningit, sepsis və s. kimi cox ciddi və ölümcül xəstəliklərdən qoruyur.

Doğum evində doğulan uşaqların analarına peyvənd təqvimi təqdim olunur və bu təqvimdə qeyd olunan tarixlərdə uşaqların peyvəndə alınması üçün tibb müəssisəsinə gətirilməsi haqqında məlumat verilir.

Lakin təəssüflər olsun ki, bəzi valideyinlər tibb işçiləri tərəfindən uşaqların peyvənd olunması haqqında məlumat verilsə də, müxtəlif bəhanələrlə uşaqlarını peyvəndə gətirməkdən imtina edirlər. Vaksinasiya üçün olduqca az əks göstəriş vardır. Hər hansı yüngül respirator və bağırsaq infeksiyaları, allergiya və yaxud astma, çəki catışmazlığı yaxud vaxtından əvvəl doğulmuş uşaqlar, ümumi zəiflik, ürək, ağ ciyər, böyrək və qaraciyərin xroniki xəstəlikləri və s. halları peyvəndə əks göstəriş deyildir.

Körpə uşaqlar cox vaxt xəstələndikdə onların immunlaşdırılması təxirə salınır. Bu da ona gətirib cıxarır ki, belə uşaqlar immunitetin zəif olması üzündən idarə olunan xəstəliklərdən birinə yoluxur.

Hər peyvəndin təqvimə uyğun yaşda vurulması cox vacibdir,- çünki həmin yaş dövründə uşağın peyvəndlə qarşısı alınan təhlükəli xəstəliklərə məruz qalma riski olduqca yüksəkdir. Həmcinin bu yaş dövründə peyvəndləmə nəticəsində daha güclü immunitet yaranır. Buna görə də peyvəndlərin gecikdirilməsi uşaqların təhlükəli xəstəliklərə yoluxma riskini artırır.

Peyvəndlər hər hansı dərman peraparatları kimi bəzi yan təsirlərin yaranmasına səbəb ola bilər.

Bu normal haldır və övladınız üçün zərərli və təhlükəli deyil. Peyvənd vurduqdan sonra ən çox rast gəlinən yan təsirlərə ineksiya yerində ağrı, şişkinlik və yüngül qızdırma daxildir. Bu əlamətlər adətən bir neçə gün davam edir və sadə müalicə ilə kecir. Məsələn uşaq peyvənd vurulan qolunda narahatlıq hiss edirsə, ineksiya yerinə təmiz, sərin, nəm dəsmal yerləşdirin və qolu ehmalca hərəkət etdirin. Övladınızın qızdırması qalxarsa ona bol maye verin və yüngül geyindirin.

Məlumat üçün bildiririk ki, 2022-ci ilin dekabr ayından başlayaraq Azərbaycanla həmsərhəd olan Gürcüstan, Türkiyə, Rusiya və İran İslam Respublikasında qızılca xəstələrinin artımı müşahidə olunur. Azərbaycanda qızılca halları 2023-cü ilin aprel ayının sonundan qeydə alınır.

Belə ki, Türkiyə və Rusiyadan gətirilmə qızılca hadisələri ilə ələqədar olaraq xəstəliyin yayılma halları qeydə alınmışdır. Onlardan 33 hadisə Şəki rayonu İnternat tipli Gimnaziyada baş vermişdir. Aparılan epidemioloji araşdırma nəticəsində xəstəliyə yoluxmuş uşaqların qızılca əleyhinə peyvənd almadığı aşkar olunmuşdur.

Yaranmış vəziyyət ilə əlaqədar mütəşəkkil kollektivlərdə (ümumtəhsil məktəblərində, uşaq bağçalarında və s.) uşaqların sıx təması nəticəsində hava-damcı infeksiyalarının yayılması üçün daha əlverişli şəraitin olmasını nəzərə alaraq rayon ərazisində tibb müəssisələri tərəfindən proflaktik peyvənd işinin gücləndirilməsi, yaşa görə peyvəndlərdən kənarda qalmış xüsusilə 10 yaşa qədər qızılca peyvəndi almayan uşaqların aktiv aşkarlanması və təcili vaksinasiyaya cəlb olunması tələb olunur.

Bu işdə yerli idarəetmə orqanlarının rəhbərləri, məktəb direktorları, ictimai fikirə təsir edə bilən şəxslər tibb işçilərinə yaxından kömək göstərməlidir.

Hər bir uşağın dünyada hələ də ciddi fəsadlar yaradan ağır xəstəliklərdən peyvəndlər vasitəsi ilə qorunmaq hüququ vardır.

Odur ki, hörmətli valideyinlər! Uşaqlarınızın peyvənd olunmasından imtina etməyin. Çünki peyvənd almayan övladınız hər hansı yoluxucu xəstəliyə yoluxarsa və onda geri dönməz bir sıra ağırlaşmalar baş verərsə, siz özünüzü daima günahkar hesab edəcək və peşman olacaqsınız.

Lakin sonrakı peşmancılıq fayda verməyəcəkdir.

**Atif MƏMMƏDOV,**
**rayon GEM-nin sanitariya şöbə müdiri.**

# Stolüstü tennis üzrə rayon turniri

Şəki - Zaqatala Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Qəbələ Olimpiya İdman Kompleksində "Zəfər Günü"nə həsr edilmiş stolüstü tennis üzrə kişilər arasında rayon turniri keçirilmişdir. Yarışın keçirilməsində məqsəd zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsin-



də torpaqlarımızın azadlığı, ölkəmizin ərazi bütövlüyü naminə canından keçmiş şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək, idmançılarda yarış təcrübəsi və ustalığı inkişaf etdirmək, həmçinin stolüstü idman növünü gənclər arasında təbliğ etmək, yarış iştirakçılarının idman ustalıqlarının artırılması və təkmilləşdirilməsini təmin etmək, idmanın kütləviliyinə nail olmaq, həmçinin Olimpiya İdman Kompleksindən səmərəli istifadə etməkdən ibarətdir.

Turnirin açılış mərasimində Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi Elçin Osmanov çıxış edərək yarış iştirakçılarını salamlamış, torpaqlarımızın müdafiəsi və azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi yad edilmiş, 44 günlük vətən müharibəsi haqqında danışaraq böyük qələbənin, parlaq zəfərin mübariz oğullarımızın şücaəti və Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi sayəsində baş tutduğunu qeyd edib və ölkədə idmançılara göstərilən qayğı və diqqətdən danışaraq yarış iştirakçılarına uğurlar arzuladı.

Daha sonra turnirə start verildi və idmançılar gərgin oyun nümayiş etdirdilər. Turnirin yekun nəticəsinə əsasən Ramiz Mirkamalov I yeri, Möylam Xəlilov II yeri və Əli Hacıyev III yeri tutmuşlar.

Qaliblərə Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin kubok və diplomları təqdim edilmişdir.



Payız lövhələri.


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2024-cü ilin birinci yarısı üçün abunə yazılışına başlanmışdır.
Yarımillik abunə qiyməti 20 manatdır.
*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*
*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56


## İTMİŞDİR

Qəbələ rayon Uludaş kənd sakini **Bayramov Səid Yusif oğluna** məxsus UAZ 20 BR 778 nömrəli yük maşınının **qeydiyyat nişanı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Vergilər Naziriyinin 10 saylı Ərazi Vergilər İdarəsi tərəfindən 29 yanvar 2013-cü ildə qeydiyyata alınmış (qeydiyyat № 4400668451) **"Kapital-xidmət" MMC-yə** məxsus **möhür** itdiyi üçün etibarsız sayılır

## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Mediasiya Təşkilatının idarə heyətinin sədri Ədalət Əliyev və MT-nın kollektivi Qəbələ Rayon Məhkəməsinin sədri **Abbas Əliyevə** anası

**İsmayılova Gülnaz İmran qızının**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Qəbələ" qəzetinin kollektivi Aydınqışlaq kənd sakini

**Müseyib Ağayevin**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və əzizlərinə dərin hüznlə başsağlığı verir.


Redaktor
Azad Məmmədov.

TƏSİSÇİ:
Redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1.300*